# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi

**(Əvvəli 5-ci səhifədə).**

Rayonda 2016-cı ilin I yarımili ərzində bir neçə beynəlxalq və respublika səviyyəli yarış keçirilmişdir ki, bunlardan ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş "Tour d'Azerbaidjan-2016" Beynəlxalq Velosiped Turnirini və Olimpiya Atıcılıq növləri üzrə III Beynəlxaq Qran-Pri yarışlarını, "Gənc xilasedici və yanğınsöndürən" V respublika birinciliyi və IV Beynəlxalq yarışını göstərə bilərik. Həmçinin MDB iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş iştirakçılarının bədən tərbiyə və idman üzrə Şurasının iclası, yeniyetmələr arasında sərbəst-güləş, cüdo və taekvondo idman növləri üzrə Qəbələ rayon Açıq turnirləri də keçirilmişdir.

"Qəbələ Olimpiya İdman Kompleksi" MMC 2016-cı ilin I yarısında idmanın inkişaf etdirilməsi, Olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması istiqamətində öz işini təşkil etmişdir. 2016-cı ilin I yarısında kompleksin xidmətlərindən 5412 nəfər/gün istifadə olunmuşdur. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 246 nəfər təşkil etmişdir ki, bunlardan da 135 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən yararlanmışlar. Kompleksin xidmətlərindən ödənişsiz əsasla istifadə edənlər Olimpiya İdman növləri üzrə təşkil olunmuş seksiyalarda məşğul olan idmançılardır. Qəbələ Olimpiya İdman Kompleksində 2 Olimpiya İdman növü üzrə (Sərbəst Güləş, Boks) ödənişsiz seksiyalar fəaliyyət göstərir ki, bu seksiyalarda 45 nəfər məktəb yaşlı uşaqlar idmanla məşğul olurlar.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi nəticəsində peşə - ixtisas təhsilinin məzmunu müasir tələblərə və şəraitə uyğunlaşdırılaraq mövcud əmək bazarını, işə götürənlərin tələblərini nəzərə alaraq inkişaf etdirilir. Təhsilalanların müstəqil həyata hazırlaması, onlara seçdikləri peşələrin mükəmməl öyrədilməsi, milli və beynəlxalq əmək bazarında rəqabətqabil xüsusiyyətlərə malik olan kadrların yetişdirilməsi peşə məktəblərinin üzərinə düşən vacib vəzifələrdir.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 191 şagird təhsil alır. 2015-2016-cı tədris ilində Mərkəzi 171 nəfər məzun bitirmişdir. Onlardan 39 nəfəri ümumi orta təhsil bazasından, 132 nəfəri isə tam orta təhsil bazasındandır. Təhsil müddəti 2 il olan qruplar aşpaz və mehmanxana inzibatçısı peşəsinə, təhsil müddəti bir il olan qruplar isə əməliyyatçı mühasib, kompüter operatoru, aşpaz, ofisiant, barmen, bufetçi, qənnadçı, şirniyyatçı, mehmanxana inzibatçısı peşəsinə yiyələnmişlər.

Buraxılış qrup şagirdlərinin istehsalat təcrübəsinin təşkili və keçirilməsi məqsədi ilə sifarişçi təşkilatlarla (Qafqaz Resort Otel, Qafqaz Riverside Otel, Qafqaz Sport Otel, Qafqaz Tufandağ Otel, Qəbələ Statistika İdarəsi, Azərpoçt MMC-nin Qəbələ şöbəsi, "Fərid" kiçik müəssisəsi, Yengicə İstirahət Mərkəzi və s.) müqavilələr bağlanaraq şagirdlərin hamısı istehsalat təcrübəsinə göndərilmişlər.

İstehsalat təcrübəsi keçməsi üçün mərkəzdə hazırlanan ayrı-ayrı peşələr üzrə dəqiqləşdirilmiş proqramlar tərtib edilərək istehsalat nümayəndələri ilə razılaşdırılmışdır.

Qəbələ Peşə məktəbində iyun ayında Dövlət buraxılış-ixtisas imtahanları keçirilmiş və 113 nəfər məzun 6 peşə üzrə məktəbi bitirmişdir. Növbəti tədris ili üçün keçid kontingenti 40 nəfər nəzərdə tutulmuş və yeni peşələr üzrə 160 nəfər, o cümlədən 40 nəfərin ödənişli əsaslarla qəbul edilməsi gözlənilir. Bu tədris ilində dərzi, elektrik avadanlıqlarının təmir və xidməti üzrə elektrik montyoru, kənd təsərrüfatı maşın və avadanlıqlarının təmiri üzrə çilingər, traktorçu-maşinist, çilingər-santexnik, qaz avadanlıqlarının təmir və istismarı üzrə çilingər, kimyəvi-bakterioloji analiz laborantı (ödənişli), bağban (ödənişli) peşələri üzrə şagird qəbulu aparılır. Bundan əlavə vətəndaşların müraciətlərinə əsasən məktəbdə qısa müddətli kursların da təşkil olunması nəzərdə tutulmuşdur.

Son zamanlar təhsil sahəsində baş vermiş yeniliklər bir daha göstərir ki, peşə təhsili sisteminə diqqət getdikcə artmaqdadır və əmək bazarı, iqtisadiyyatın və müasir qloballaşma prosesinin tələbləri bu sahəni inkişaf etdirməyə zərurət yaradır. Hazırda peşə-ixtisas təhsili və təlimi inkişaf mərhələsindədir.

2016-cı ilin birinci yarısında Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən rayonun yaşayış məntəqələrində "Qızların təhsildən yayınmasının qarşısının alınması", "Erkən evlilik və onun fəsadları", "Narkomaniya-əsrin faciəsi" mövzularında maarifləndirici tədbirlər keçirilmişdir. Tədbirlərdə 300 nəfərə yaxın iştirakçı olmuşdur. Mərkəzdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün toxuculuq, kompüter və dil kursları fəaliyyət göstərir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Son zamanlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müxtəlif səpkili çıxışları nəticəsində respublikamızda əhəmiyyətli dərəcədə müşahidə edilən sosial iqtisadi inkişaf 2016-cı ilin I yarım ili ərzində də davam etmişdir. Bu tendensiya aqrar sahə üçün də xarakterik olmuşdur. Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Nazirlər Kabinetində ölkənin 2016-ci ilin 6 ayında sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair keçirilən iclasında qeyd etdiyi kimi son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində bütövlükdə ölkə üzrə bu sahədə xeyli irəliləyiş nəzərə çarpır.

Bununla yanaşı dövlət başçısının müvafiq tapşırığına uyğun olaraq rayonlarda kənd təsərrüfatı işlərinin gedişinin, fermerlərin və torpaq mülkiyyətçilərinin təklif və istəklərini, həmçinin aqrar sektorun inkişaf prespektivlərinin öyrənilməsi məqsədilə yaradılan işçi qrupu rayonda olmuşdur. İşçi qrupu ilk öncə rayonda fəaliyyət göstərən istehsal zavodlarında və əkin sahələrində olmuş və yekunda rayon icra hakimiyyətində geniş müşavirə keçirilmişdir.

Hazırda rayonumuzun kənd təsərrüfatı sahəsində əhəmiyyətli dirçəliş hiss edilir. Bu sahədə Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Sərəncamda kənd təsərrüfatı məhsulları istehsalçılarına büdcə vəsaiti hesabına yardımların verilməsi nəzərdə tutulur. Həmin sərəncamın rayonda icrası ilə əlaqədar olaraq torpaq mülkiyyətçilərinə dövlət büdcəsinin vəsaiti hesabına yardımların hesablanması üçün ilkin sənədlərin hazırlanması artıq başa çatdırılmışdır.

2016-cı ilin məhsulu üçün 22.510 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir ki, onun da 16.010 hektarını buğda, 6500 hektarını isə arpa sahələri təşkil etmişdir. Hazırda taxıl biçini başa çatdırılmış və nəticədə 71.081 ton məhsul istehsal olunmuşdur. Hər hektardan orta məhsuldarlıq 31,6 sentner təşkil etmişdir.

Torpaq sahibləri tərəfindən cari ilin məhsulu üçün 1.054 hektar kartof, 1.992 hektar tərəvəz əkilmişdir. İndiyədək həmin sahələrdən 1.650 ton kartof, 1.120 ton tərəvəz məhsulu toplanmışdır. Sahələrdən məhsul toplanışı davam edir.

Yüksək məhsuldarığa təsir edən amillərdən biri də torpaqların münbitliyinin qabaqcadan öyrənilməsi, gübrələrə və dərman pereparatlarına olan tələbatın tam ödənilməsidir. Qeyd etmək lazımdır ki, əkinçilər güzəştli şərtlərlə gübrə və dərman preparatları ilə təmin edilirlər. Keçən dövr ərzində ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilmişdir. Belə ki, 6 ay ərzində ziyanvericilərə qarşı 9200 hektar, alaq otlarına qarşı mübarizə məqsədilə isə 1200 hektar sahə dərmanlanmışdır.

Cari ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə laboratoriya analizinə gətirilmiş qarğıdalı, kartof, yonca, keşniş toxumları yoxlanılmış və müvafiq rəy verilmişdir. Rayonda fəaliyyət göstərən 6 özəl toxumçuluq təsərrüfatlarının yetişdirdiyi 2151 hektar toxumluq əkin sahələrində aprabasiya işi aparılmış və hazırda taxıl nümunələrinin analizinin aparılması üçün hazırlıq işləri görülür.

Cari ilin 6 ayı ərzində Dövlət Meşə Fondu torpaqlarında 30 ha meşə əkini və səpini aparılmışdır. 63 ha. sahəni əhatə edən meşə əkinlərində təmir işləri aparılmış və ümumilikdə əkin işlərinə 58500 ting sərf edilmişdir.

Hazırda 2 böyük və 4 kiçik həcmli Aqroservis müəssisəsi fəaliyyət göstərir və onlarda müəyyən qədər kənd təsərrüfatı texnikası cəmlənmişdir. Bundan əlavə rayon üzrə 410 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayon üzrə 80 ədəd taxılyığan kombayn, 53 ədəd tırtıllı və 444 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskvator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı da daim təzələnir. Bunun nəticəsidir ki, cari ilin məhsul toplanışında rayonumuzda texnika çatışmazlığı hiss olunmamışdır.

Heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda rayon üzrə iribuynuzlu mal-qaranın sayı 46.580 baş, qoyun-keçilər 188.214 baş, donuzların sayı 1.050 baş olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı xeyli artmışdır. Belə ki, ət istehsalı 2.052 tona, süd istehsalı 19.550 tona, yumurta istehsalı 5.921 min ədədə, yun istehsalı isə 312 tona çatdırılmışdır. Hazırda əhalinin quş əti və yumurtaya olan tələbatının ödənməsi məqsədilə rayonda əvvəllər mövcud olmuş broyler quşçuluq kompleksinin fəaliyyətinin genişləndirilməsi istiqamətində də işlər aparılır. Həmçinin əhalinin südə olan tələbatını ödəmək məqsədi ilə şəhər bazarında və bir neçə iri kənddə daimi süd satışı təşkil edilmişdir.

Rayonda 2 müasir heyvandarlıq kompleksi fəaliyyətə başladıqdan sonra rayon əhalisinin ətə və südə olan tələbatının ödənməsində ciddi müsbət dəyişikliklər baş vermişdir. 2016-cı ildə 2 ədəd yeni kiçik həcmli heyvandarlıq ferması istifadəyə verilmişdir.

Rayonda mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 6 süni mayalama məntəqəsi fəaliyyət göstərir. 6 ay ərzində 2.827 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalanmış heyvanlardan 917 baş bala alınmışdır ki, bu da yüksək məhsuldar heyvanların əldə olunmasına imkan yaradacaqdır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizotik durum demək olar ki, sabitdir. 2016-cı ilin 6 ayı ərzində 7 baş iribuynuzlu və 2 baş xırdabuynuzlu heyvanın brusellyoza qarşı müayinə zamanı xəstə olduğu müəyyən edilmişdir ki, həmin heyvanlar da təsərrüfatdan çıxarılmışdır. Digər yoluxucu xəstəliklər-dabaq, qarayara, leptesprioz, çiçək və sair müşahidə edilməmişdir.

Rayon balıqyetişdirmə zavodunda hazırda 75 min ədəd sağlam balıq körpəsi yetişdirilir. Həmin balıqlar cari ilin noyabr-dekabr aylarında Xəzər dənizinə və Kür çayına buraxılacaqdır. Bundan əlavə zavodda damazlıq məqsədi ilə Nərə, Ag Amur, Yapon qızıl balıgı cinsləri yetişdirilir.

Respublikamızın paytaxtı Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəal iştirak etmişdir. 2016-cı ilin 6 ayı ərzində həmin yarmarkalarda 21,5 ton tumlu, 25 ton qərzəkli meyvələr və 2,5 ton süd məhsulu satılmışdır.

Respublikamızın iqtisadiyyatındakı irəliləyişlər, aqrar sahəyə dövlət qayğısının daim artması, bu sahədə rayonda görülən işlər bizə dəməyə imkan verir ki, rayonumuzun aqrar sahəsi və bu sahədə görülən işlər yüksək templərlə inkişaf edəcəkdir.

**(Ardı 7-ci səhifədə).**